**Azərbaycan Dövlət Neft Akademiyası**

---

*Əlyazması hüququnda*

**BAXIŞOV AZƏR SIRAC OĞLU**

# EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİYİNİN TƏMİN OLUNMASININ STRATEJİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5309.01 – Sənayenin təşkili və dövlət siyasəti**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **Q.S.Süleymanov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **E.M.Hacızadə**

iqtisad üzrə fəlsəfə doktoru **N.B.Böyükkişi**

**Aparıcı təşkilat:** **Sumqayıt Dövlət Universiteti**

Dissertasiyanın müdafiəsi 17 iyun 2013-cü il saat $11^{00}$-da Azərbaycan Dövlət Neft Akademiyasının nəzdindəki B/D.02.141 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Az 1010, Bakı şəhəri, Azadlıq prospekti 20, ADNA.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Neft Akademiyasının kitabxanasında tanış olmaq olar:

Avtoreferat “___” may 2013-cü il tarixində göndərilmişdir.

**B/D.02.141 Dissertasiya Şurasının**
**Elmi katibi, t.e.d., professor** **Ə.M.Əliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qloballaşan dünyada beynəlxalq meyarlara uyğun güclü dövlət kimi inkişaf etmək yalnız rəqabətədavamlı, dayanıqlı və davamlı inkişaf edən açıq bir iqtisadi sistemin idarə olunması ilə mümkün ola bilər. Başqa sözlə, ölkədə iqtisadi inkişafın artım tempinin və bütövlükdə isə istehsalat və xidmət sahələrindən ibarət olan iqtisadi sistemin düzgün idarə edilməsi nəticəsində ölkə iqtisadiyyatının inkişafı əldə edilə bilər. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiya»nın həyata keçirilməsi və «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı» üzrə dövlət proqramları və "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyası qəbul edilmişdir. Bu proqramlar və konsepsiya qeyri-neft sektorunun qabaqlayıcı inkişafına nail olmağı, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmağı, innovasiyanı milli iqtisadiyyatın dayanıqlı inkişafının əsas amili götürməyi, regional iqtisadiyyatın dinamik inkişafını, o cümlədən emal sənayesi sahələrinin rəqabətədavamlığının inkişaf strategiyasının formalaşmasını əsas məqsəd kimi qarşıya qoyur.

Respublikada aparılan məqsədyönlü islahatların nəticəsidir ki, son illərdə qeyri-neft sektorunun dinamik inkişafı davam etmiş və onun real artım tempi, ümumi artım tempini üstələyərək 7,6%, o cümlədən qeyri-neft sənayesində 6,6%, rabitədə 29,7%, nəqliyyatda yük daşıması 3,1% təşkil etmişdir.

Məhz bunun nəticəsidir ki, Dünya İqtisadi Forumu tərəfindən 2010-2011-ci illər üzrə hazırlanmış «Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycan MDB ölkələri arasında birinci, makroiqtisadi sabitlik indeksi üzrə isə 14 pillə irəliləyərək, 139 ölkə arasında 13-cü yerdə qərarlaşmışdır.

Lakin bu uğurlu islahatlarla yanaşı emal sənayesi müəssisələrində son illərdə bir sıra geriləmələr baş vermişdir. Belə ki, 2011-ci ildə ÜDM-in 54,6%-ni verən sənaye sahələrində fəaliyyət göstərən müəssisələrin 71,4%-ni, işləyənlərin 50,6%-ni özündə birləşdirən böyük istehsal potensialına malik emal sənayesi müəssisələri ölkədə istehsal edilmiş sənaye məhsullarının yalnız 14,3%-ni, ÜDM-nin isə 4,5%-ni verir. Eyni zamanda ölkə sənayesinin qeyri-dövlət sektorunda emal sənayesinin qeyri-dövlət sektorunun payı 11,8%, sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində isə emal sənayesinə qoyulan investisiyaların payı 15,8% təşkil edir. Bununla yanaşı emal sənayesi müəssisələrində texnoloji innovasiyalara çəkilən xərclərin 97,7% məhsul innovasiyalara, 2,3%-i isə proses innovasiyalara yönəldilmişdir. Emal sənayesi müəssisələrində texnoloji innovasiyalara yönəldilən cəmi xərclərin 70,7%-i müəssisələrin öz

vəsaiti hesabına, 29,3%-i isə dövlət büdcəsi hesabına ödənilmişdir. Bu vəsaitlərin 11,3%-i yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsinə, 0,3%-i innovasiya ilə əlaqədar işlərin öyrənilməsi və hazırlığına, 0,07%-i yeni məhsulların buraxılışı üçün istehsal layihələrinin, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə xidmətlərin və ya metodların tətbiqinə, 7,4%-i elmi-tədqiqat və işləmələrə yönəldilmişdir. Marketinq tədqiqatlarına, yeni texnologiyaların və proqram vəsaitlərinin alınmasına və texnoloji innovasiyalara heç bir vəsait ayrılmamışdır.

Bütün bunlar onu göstərir ki, bu gün emal sənayesi müəssisələrinin mövcud vəziyyəti, qloballaşan müasir dünyada rəqabətədavamlı məhsullar istehsal etməyə bütövlükdə hazır deyil. Bu isə onu deməyə əsas verir ki, emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmi yenidən elə işlənilməlidir ki, bu halda ölkədə yeni rəqabət mühitinin yaradılması müəssisələrin rəqabət qabiliyyətliyinin azalması ilə nəticələnməsin.

Bütün bunlar dissertasiya işinin aktuallığını əsaslandıran əsas amillərdir.

**Problemin öyrənilmə səviyyəsi.** Bazar münasibətlərinin geniş vüsət aldığı müasir dünyada rəqabət münasibətlərinin müxtəlif formalarının tətbiqinə baxmayaraq, iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsi problemi hələ kapitalizmdən əvvəlki dövrə daxil olan metodologiya təşkil edir. Yəni, rəqabətqabiliyyətlilik problemi iqtisadi nəzəriyyə klassikləri də daxil olmaqla, həmişə iqtisadçı-alimlərin diqqət mərkəzində olmuş və hal-hazırda da bu problemin tədqiqinə aid çoxsaylı elmi-tədqiqat işləri həsr edilmişdir. Belə ki, bu problemin nəzəri-metodoloji aspektləri üzrə xarici ölkə alimləri M.E.Porter, Y.Şumpeter, Z.Xunuta, F.Xayek, İ.Kirçiner, Q.Hamel, L.Kaçalin, A.Smit, D.Rikardo, A.Kurkos, E.Çemberlin, A.Lerner, C.Robinson və baçqaları dəyərli tədqiqat işləri aparmışdır. MDB məkanında isə Q.Azov, A.Viktorova, A.Sokolov, Q.İvan, V.Abramov, L.Çaynikova, Y.Kurenkov, Y.Elenova, P.Zalov, T.Praxova, E.Smirnov, F.Fatxutdinov və s. Azərbaycanda isə - Z.Ə.Səmədzadə, İ.H.Alıyev, E.M.Hacızadə, Ə.X.Nuriyev, V.T.Novruzov, T.H.Hüseynov, T.N.Əliyev, M.C.Atakişiyev, M.M.Fərzəliyev, A.N.Muradov, Q.S.Süleymanov və s. kimi tanınmış iqtisadçı alimlər problemin müxtəlif istiqamətləri üzrə tədqiqat işləri aparmışlar. Bu sahədə aparılan tədqiqat işlərinin əhəmiyyətini azaltmadan, qeyd etmək lazımdır ki, qloballaşan müasir dünyada respublikamızın emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmlərinin kompleks şəkildə tədqiq olunması kifayət qədər öyrənilməmişdir.

Bütün bunlar dissertasiya işinin məqsəd və vəzifələrini şərtləndirir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi bazar iqtisadiyyatında emal sənayesi müəssisələrinin rəqabət

strategiyasının formalaşmasının yeni metod və mexanizmlərini işləyib hazırlamaqdır.

Bu məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Qloballaşan müasir dövrdə rəqabət münasibətlərinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi və beynəlxalq meyarlar nəzərə alınmaqla ümumiləşdirmələrin aparılması;
- Bazar iqtisadiyyatında emal sənayesi müəssisələrində rəqabət münasibətlərinə təsir edən kompleks amilləri müəyyən etmək və onların qiymətləndirilməsini aparmaq;
- Emal sənayesi müəssisələrinin inkişaf meyllərini tədqiq etmək və onun rəqabət qabiliyyətlilik səviyyəsini müəyyənləşdirmək;
- Tikinti materialları istehsal edən müəssisələrin müasir vəziyyətini təhlil etmək və onun milli iqtisadiyyatın inkişafında rolunu müəyyənləşdirmək;
- Emal sənayesi müəssisələrində rəqabət mühitinin formalaşmasında innovasiya amillərinin rolunu müəyyənləşdirmək və bu amillərin yüksəldilməsi mexanizmlərini işləyib hazırlamaqdır;
- Bazar münasibətlərində emal sənayesi müəssisələrinin rəqabət strategiyasının yeni metod və mexanizmlərini müəyyən etmək və buna uyğun konkret təkliflərin işlənib hazırlanması.

**Tədqiqatın obyektini** Azərbaycanın emal sənayesi müəssisələrinin baza sahələri təşkil edir.

**Tədqiqatın predmetini** bazar iqtisadiyyatında Azərbaycanın emal sənayesi müəssisələrinin baza sahələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsinin strateji istiqamətlərinin müəyyənləşdirilməsi mexanizmləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** tədqiq edilən problem üzrə xarici və ölkə iqtisadçı-alimlərin tədqiqat işləri, Azərbaycan Respublikasının qanunları və qərarları, Respublika Prezidentinin Fərmanları, Dövlət Proqramları, Azərbaycan Respublikasının Milli Məclisinin qanunları və digər qanunvericilik aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları və digər hüquqi normativ sənədlər təşkil edir. Tədqiqat metodu kimi məntiqi ümumiləşdirmə, statistik təhlil, qruplaşdırma, müqayisə, iqtisadi-riyazi təhlil və reqressiya üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf Nazirliyinin, Gömrük Komitəsinin, Vergilər Nazirliyinin, Ümumdünya Bank və Beynəlxalq Valyuta Fondunun faktiki materialları, müvafiq sahələrin idarəetmə orqanlarının və əlaqədar elmi-tədqiqat müəssisələrinin statistik məlumatları, hesabatları və tədqiq olunan

sənaye sahələri müəssisələrindən toplanmış faktiki materiallar və internet məlumatları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Qloballaşan dünyada emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətliyinin tənzimlənməsinin metodoloji aspektləri bazarın tələbatına uyğun ilk dəfədir ki, kompleks şəkildə tədqiq edilmişdir;
- Emal sənayesi müəssisələrində rəqabət münasibətlərinə təsir edən amillər və onların qiymətləndirilməsi prinsipləri elmi cəhətdən əsaslandırılmışdır;
- Bazar münasibətlərində emal sənayesi müəssisələrinin inkişaf meylləri və onun rəqabət qabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi mexanizmləri kompleks şəkildə tədqiq edilmişdir;
- Tikinti materialları istehsal edən müəssisələrin müasir vəziyyəti tədqiq edilmiş və onun rəqabət qabiliyyətlilik səviyyəsinin metodiki əsasları işlənib hazırlanmışdır;
- Emal sənayesi müəssisələrində rəqabət münasibətlərinin formalaşmasında innovasiya strategiyasının əsas istiqamətləri və proqnoz modeli təklif edilmişdir;
- Bazar münasibətlərində emal sənayesi müəssisələrinin rəqabət strategiyasının qiymətləndirilməsinin yeni metodiki əsasları işlənilib hazırlanmışdır;
- Respublikanın emal sənayesi müəssisələrində sağlam rəqabət mühitinin formalaşmasına təsir edən amillər kompleks şəkildə təhlil olunaraq, onun diversifikasiya yolu ilə yüksəldilməsi mexanizmləri işlənib hazırlanmışdır;
- Respublikanın emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsinin strateji istiqamətləri müəyyənləşdirilmiş və bu istiqamətlər üzrə elmi cəhətdən əsaslandırılmış əməli təklif və tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqat işinin praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas müddəalarından, əsaslandırılmış əməli xarakterli təklif və tövsiyələrdən istifadə edilməsi Azərbaycanın emal sənayesi müəssisələrinin bazar prinsipləri əsasında yenidən qurulması mexanizmlərini və nəticədə isə onların rəqabət qabiliyyətliyinin yüksəldilməsinin strateji istiqamətlərinin müəyyən edilməsinə gətirib çıxaracaq.

Dissertasiya işinin əsas müddəaları, alınmış nəticələr və irəli sürülən təkliflər Azərbaycanın emal sənayesi müəssisələrinin baza sahələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsi ilə əlaqədar müxtəlif inkişaf strategiyasının və “Rəqabət Məcəlləsi” layihəsinin işlənib hazırlanması prosesində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiya işində əldə edilən nəticələr, irəli sürülən əməli təklif və tövsiyələr beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda məruzə edilmiş və nüfuzlu iqtisadi jurnallarda nəşr edilmişdir.

Dissertasiya işinin nəticələri elmi-tədqiqat işləri həmçinin "Müəssisə iqtisadiyyatı", "Menecment", "İnnovasiya menecmenti" və s. fənlərin tədrisində istifadə olunur.

**Məqalələrin nəşri.** Dissertasiya işinin əsas müddəaları və nəticələri dərc olunmuş 16 elmi əsərdə (10 çap vərəqi həcmində) öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsildən, nəticə və təklifdən və 137 adda ədəbiyyat siyahısından ibarət olmaqla 163 səhifə həcmindədir. İşdə 5 şəkil, 25 cədvəl verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilməsi səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası göstərilir, habelə işin elmi yenilikləri, təcrübi əhəmiyyəti, aprobasiyası və tətbiqi şərh edilir.

Dissertasiyanın **«Bazar iqtisadiyyatında rəqabət münasibətlərinin tənzimlənməsinin nəzəri-metodoloji əsasları»** adlanan **birinci fəslində** bazar münasibətlərində rəqabətə nəzəri yanaşmalar, emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyinin tənzimlənməsi metodologiyası, emal sənayesi müəssisələrində rəqabət münasibətlərinə təsir edən amillər və onların qiymətləndirilməsi yolları tədqiq edilir.

Bu fəsildə qeyd olunur ki, bazar münasibətlərinin əsasını iqtisadiyyatın tənzimlənməsi təşkil edir ki, bunu da ölkədə azad rəqabət mühitinin yaradılması ilə əldə etmək mümkündür. Belə ki, rəqabətli iqtisadiyyat istehlakçılar üçün ən zəruri məhsulların istehsalı üçün resursların müəssisə və sahələr arasında səmərəli bölgüsünə, tələbə uyğun məhsullarının ən ucuz üsulla istehsal olunmasına, onların keyfiyyətinin artırılmasına, bütövlükdə isə bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtlər daxilində həyata keçirilməsinə səbəb olur. Deməli, ölkədə rəqabət mübarizəsi dinamik prosesidir və bazarın əmtəə ilə daha yaxşı təminatına xidmət edir. O istehsalın tempi və həcminin tənzimlənməsi rolunu oynayır. Bu zaman istehsalçını elmi-texniki nailiyyətlərin tətbiqinə, əmək məhsuldarlığının yüksəldilməsinə, texnologiyanın, istehsalın təşkilinin təkmilləşdirilməsinə, bütövlükdə isə innovasiyalı iqtisadiyyatın yaradılmasına istiqamətləndirir.

Beləliklə, rəqabət bazar əlaqələrinə cəlb olunmuş bazar iştirakçıları arasında xüsusi formada təzahür edən münasibətləri ifadə edir. O, bir tərəfdən istehsalçıların öz aralarında, ikinci tərəfdən istehsalçılarla istehlakçılar arasında, üçüncü tərəfdən isə istehlakçıların öz aralarında mənafelərinin reallaşması uğrunda mübarizəni əks etdirir.

Bu fəsildə emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin tənzimlənməsi metodologiyası da verilmişdir. Burada göstərilir ki, bazarda rəqabət şəraiti həmişə inkişaf edir, buna görə də müəssisə bazarda rəqabətin vəziyyətini izləməlidir. Yalnız belə şəraitdə müəssisə özünün və rəqiblərinin imkanlarını düzgün qiymətləndirə və özünün rəqabət üstünlüklərinin artmasına istiqamətlənən optimal rəqabət strategiyası hazırlaya bilər. Bu halda, rəqabətin beş qüvvəsi sahənin mənfəətliliyini müəyyən edir, çünki onlar müəssisənin müəyyən etdiyi qiymətin səviyyəsinə, onların sərf etdiyi xərclərə, müəssisənin bu sahədə rəqabət aparması üçün zəruri olan investisiya qoyuluşlarının həcminə təsir göstərir.

Bu fəsildə eyni zamanda rəqabət münasibətlərinə təsir edən amillər də qiymətləndirilir. Bu məqsədlə M.Porter nəzərriyəsindən istifadə edilir. Belə ki, müasir rəqabətqabiliyyətlilik nəzəriyyəsinin banisi M.Porter qeyd edir ki, “milli inkişaf irsən keçmir, o yaradılır. Milli inkişaf klassiklərin iddia etdiyi kimi sadəcə təbii resurslardan, işçi qüvvəsinin mövcudluğundan, faiz dərəcəsi və ya milli valyutanın alıcılıq gücündən asılı olaraq yaranmır. Konkret xalqların rəqabətqabiliyyətliliyi onun sənayesinin yeniləşmək və modernləşmək qabiliyyətindən asılıdır.” Porter ölkələrin rəqabətli üstünlüyünü izah etmək üçün “romb qaydasını” irəli sürür. Porterin rəqabətqabiliyyətlilik nəzəriyyəsi makro və mikro rəqabətqabiliyyətlilik səviyyələrinin qarşılıqlı əlaqəsinin izahından çıxış edərək ümumi rəqabətqabiliyyətlilik konsepsiyasını ortaya qoyur.

Porterin romb modelinin Koreya kimi inkişaf etməkdə olan ölkələrə tətbiq etmək üçün məhdud olduğunu iddia edən D.Cho Koreya təcrübəsini nəzərə alaraq Porterin romb modelini modifikasiya etdi. O, beynəlxalq rəqabətqabiliyyətliliyin mənbəyini iki geniş kateqoriyaya bölür: “fiziki” amillər və “insan” amilləri. Fiziki amillər dedikdə, Cho, resursları, daxili tələbi, əlaqədar və köməkedici sahələri, biznes mühitini, “insan” amilləri dedikdə işçiləri, siyasiləri və bürokratları, sahibkarları və peşəkar menecerləri və mühəndisləri nəzərdə tuturdu. İnsan amilləri bu dörd fiziki amili yaradaraq, motivləşdirərək və nəzarət edərək milli iqtisadiyyatı bir rəqabətqabiliyyətlilik mərhələsindən digərinə adladır. Choya görə doqquzuncu amil olan təsadüflər yeganə xarici amilidir və digər səkkiz amilə təsir göstərə bilir. İnsan və fiziki amillərin hər birinin nisbi mühümlüyü iqtisadiyyatın zəif inkişaf etməkdə olan ölkədən inkişaf etməkdə olan ölkəyə və yarım inkişaf etmiş ölkədən inkişaf etmiş ölkəyə keçməsi ilə dəyişir. Doqquz amil modelinin Porterin romb modelindən fərqi

amillərin bölüşdürülməsindən və yeni amillərin əlavə edilməsindən ibarətdir. Romb modelində təbii resurslar və əmək amillərin vəziyyətində öz əksini tapırdı, doqquz-amil modelində isə təbii resursları resurslar kateqoriyasında, əməyi isə işçilər kateqoriyasında qruplaşdırılır.

Eyni zamanda, bu fəsildə göstərilir ki, emal sənayesi müəssisələrində rəqabət münasibətlərinə təsir edən amillərin qiymətləndirilməsi üzrə təqdim edilmiş mövcud modellər, sözsüz ki, sonrakı inkişafı və dəqiqləşdirməni tələb edirlər. Belə ki, nə qədər ki, real bazar strukturu konkret modelə daha yaxındır, onda rəqabətin təsvir edilmiş mexanizmləri daha gözə çarpan olacaq. Ancaq, bu o demək deyil ki, göstərilmiş rəqabəti qiymətləndirmə modellərinin köməyi ilə real bazarların çətin və zidd vəziyyətinin bütün müxtəlifliyini təsvir etmək olar. Üstünlüklər və rəqabət modellərinin çatışmazlıqları haqqında ilk növbədə bazar və rəqabət təcrübəsinin iqtisadi xüsusiyyətləri, bazar münasibətlərinin konkret tarixi inkişafı mərhələsi nöqteyi-nəzərindən mühakimə etmək lazımdır.

Daha sonra bu fəsildə göstərilir ki, emal sənayesi müəssisələrində rəqabət mühitinə təsir edən amillər bir-birindən təcrid edilməmişdir. Onların konkret bazar vəziyyətlərində görünən ümumi fəaliyyətini ayrı-ayrı tərkiblərə parçalamaq çətindir. Belə ki, bu, verilən elementlərin qarşılıqlı təsirinin qiymətləndirilməsində müəyyən çətinliklərə səbəb olur. Eyni zamanda, məhz rəqabət mühitinin fəallığının səviyyəsi emal sənayesi müəssisələrində rəqabət strategiyasının formalaşmasında, rəqabət mübarizəsinin aparılmasının vasitə və metodlarının seçimində müəyyənedici andır. Onun düzgün qiymətləndirilməsi emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin yüksəldilməsinin metod və mexanizmlərinin seçilməsində mühüm rol oynayır.

**«Emal sənayesi müəssisələrinin inkişaf meylləri və onların rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi»** adlı **ikinci fəsildə** emalı sənayesi müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin təhlili, tikinti materialları istehsal edən müəssisələrin mövcud vəziyyəti və onun rəqabətqabiliyyətliliyinin təhlili, emal sənayesi müəssisələrinin innovasiya fəaliyyəti və onun rəqabət münasibətlərinə təsirinin təhlili həyata keçirilir.

Bu fəsildə emal sənayesi müəssisələrinin rəqabətlilik səviyyəsinin təhlili həyata keçirilərək göstərilir ki, 2011-ci ildə ölkədə mövcud emal sənayesi müəssisələri sənayedə fəaliyyət göstərən müəssisələrin 71,4%-ni, işləyənlərin 50,6%-ni təşkil etsə də, ölkədə istehsal olunmuş sənaye məhsulunun yalnız 14,3%-ni, ÜDM-nin isə 4.5%-ni verir. Digər tərəfdən isə sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində emal sənayesinə qoyulan investisiyaların payı 15,8% təşkil edir.

**Cədvəl**

**Emal sənayesi müəssisələrinin əsas göstəriciləri**

| | | **2007** | **2008** | **2009** | **2010** | **2011** |
|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 1. | Bütövlükdə sənayedə fəaliyyət göstərən müəssisələrin sayı – cəmi, vahid | 2825 | 2887 | 2794 | 2650 | 2508 |
| | Dövlət | 622 | 603 | 569 | 549 | 537 |
| | Qeyri-dövlət | 2203 | 2284 | 2225 | 2101 | 1971 |
| 2. | Emal sənayesində fəaliyyət göstərən müəssisələrin sayı | 2122 | 2149 | 2103 | 1909 | 1791 |
| | Dövlət | 274 | 224 | 213 | 191 | 169 |
| | Qeyri-dövlət | 1848 | 1925 | 1890 | 1718 | 1622 |
| 3. | Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mln.man. | 22496 | 29773 | 22564 | 27978 | 35027 |
| 4. | Emal sənayesi məhsullarının həcmi, mln.man. | 4919 | 5700 | 4836 | 5736 | 6392 |
| 5. | Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində emal sənayesinin payı, faizlə | 18,9 | 16,6 | 17,3 | 15,9 | 14,3 |
| 6. | Ölkə sənayesinin qeyri-dövlət sektorunda emal sənayesinin qeyri-dövlət sektorunun payı, faizlə | 12,8 | 11,2 | 14,9 | 14,0 | 11,8 |
| 7. | Sənayedə işləyənlərin orta siyahı sayı, min nəfər | 208,3 | 210,3 | 192,3 | 181,8 | 176,7 |
| 8. | Emal sənayesində işləyənlərin orta siyahı sayı, min nəfər | 109,4 | 109,0 | 95,5 | 94,7 | 89,3 |

**Cədvəlin davamı**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 9. | Sənayedə məşğul olanların ümumi sayında, emal sənayesi işçilərinin payı, faizlə | 52,5 | 51,9 | 51,2 | 52,1 | 50,6 |
| 10. | Sənayedə bir işçinin orta aylıq əmək haqqı, manat | 346,8 | 426,0 | 412,4 | 451,8 | 518,6 |
| 11. | Emal sənayesində bir işçinin orta aylıq əmək haqqı, manat | 190,4 | 251,7 | 267,5 | 312,9 | 345,7 |
| 12. | Sənayedə ƏSİF-nin mövcudluğu, milyon manat | 28467 | 30660 | 34789 | 37105 | 41652 |
| 13. | Emal sənayesində ƏSİF-nin mövcudluğu, ilin sonuna milyon manat | 3498 | 3778 | 4141 | 4785 | 5019 |
| 14. | Sənayedə əsas kapitala yönəldilən investisiyalar, faktiki qiymətlərlə, milyon manat | 4591 | 4249 | 3225 | 4276 | 5370 |
| 15. | Emal sənayesində əsas kapitala yönəldilən investisiyalar, milyon manat | 299,9 | 395,2 | 354,2 | 510,2 | 847,9 |
| 16. | Sənaye sektoruna yönəldilən investisiya-ların ümumi həcmində emal sahəsinə qoyulan investisiyaların payı, faizlə | 6,5 | 9,3 | 11,0 | 11,9 | 15,8 |
| 17. | İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, min manat | 49620 | 8020 | 4618 | 8139 | 31589 |

**Cədvəlin davamı**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | O cümlədən emal sənayesi, min manat | 49493 | 7428 | 4102 | 8128 | 29319 |
| | Məhsul innovasiyaları | 34016 | 6652 | 1940 | 7941 | 28634 |
| | Proses innovasiyaları | 15477 | 775,4 | 2162 | 187,3 | 684,6 |
| 18. | Fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, emal sənayesi üzrə, min manat | 49493 | 7428 | 4102 | 8128 | 29319 |
| | Müəssisələrin öz vəsaiti hesabına | 25514 | 5298 | 3072 | 3573 | 20726 |
| | Dövlət büdcəsi | - | 9,4 | - | - | 8593 |
| | Büdcədənkənar fondlar | 9255 | - | - | - | - |
| | Sair | 14724 | 2120 | 1030 | 4555 | - |
| 19. | Fəaliyyət növləri və tətbiq istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, emal sənayesi üzrə, min manat | 49493 | 7428 | 4102 | 8128 | 29319 |
| | O cümlədən yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 3795 | 2517 | 728,3 | 2546 | 3320 |
| | Texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlıqların alınması | 40001 | 4524 | 2035 | 5047 | 23543 |
| | Yeni texnologiyaların alınması | 201,3 | - | 1001 | - | - |
| | Proqram vəsaitlərinin alınması | 0,1 | - | 7,0 | - | - |
| | İnnovasiya ilə əlaqədar işlərin öyrənilməsi və hazırlığı | 49,1 | - | - | 95,6 | 96,8 |

**Cədvəlin davamı**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | Yeni məhsulların buraxılışı üçün istehsal layihələrinin, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə xidmətlərin və ya metodların tətbiqi | 163,1 | 386,1 | 330,7 | 300,1 | 20,5 |
| | Marketinq tədqiqatları | 0,3 | - | - | - | - |
| | Texnoloji innovasiyalar | 5283 | - | - | 140,0 | - |
| | Elmi-tədqiqat və işləmələr | - | - | - | - | 2162 |
| | Texnoloji innovasiyalar üzrə çəkilən digər xərclər | - | - | - | - | 4,2 |
| Mənbə: Azərbaycanın sənayesi, DSK, Bakı, 2012 | | | | | | |

Bununla yanaşı, innovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən cəmi xərclərin (31589 min manat) tərkibində emal sənayesinin (29319 min manat) payı 92,8% olsa da, bu xərclərin (28634 min manat) 97,7%-i məhsul innovasiyaları, 2,3%-i (684,6 min manat) isə proses innovasiyaları təşkil edir. Eyni zamanda, fəaliyyət növləri və maliyyə mənbələrində emal sənayesi üzrə texnoloji innovasiyalara çəkilən xərclərin 70,7%-i (20736 min manat) müəssisələrin öz vəsaiti hesabına, 29,3%-i (8593 min manat) isə dövlət büdcəsi hesabına ödənilir. Fəaliyyət növləri və tətbiqi istiqamətlərində isə emal sənayesi üzrə cəmi xərclərin (29319 min manat) 11,3%-i (3320 min manat) yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsinə, 80,3%-i (23543 min manat) texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlıqların alınmasına, 0,3%-i (96,8 min manat) innovasiya ilə əlaqədar işlərin öyrənilməsi və hazırlığına, 7,4%-i (2162 min manat) elmi-tədqiqat və işləmələrə, 0,7%-i isə digər xərclərə yönəldilmişdir. Lakin yeni texnologiyaların və proqram vəsaitlərinin alınmasına, marketinq tədqiqatlarına və texnoloji innovasiyalara heç bir vəsait qoyulmamışdır.

Bu fəsildə, eyni zamanda, emal sənayesi müəssisələrinin baza sahələri olan kimya sənayesi müəssisələrinin, maşın və avadanlıqlar istehsal edən müəssisələrin, neft məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin və tikinti sənayesi məhsulları istehsal edən müəssisələrin mövcud vəziyyəti və onun rəqabətqabiliyyətlilik səviyyəsinin təhlili həyata keçirilmiş, mövcud problemlər və onu doğuran səbəblər göstərilir.

Bütün bu və ya digər təhlillər belə nəticəyə əsas verdi ki, emal sənayesi müəssisələri bugünkü dövrdə rəqabətədavamlı məhsul istehsal etmək üçün hazır deyil.

Bu fəslin sonunda belə nəticəyə gəlinir ki, hər bir ölkənin iqtisadiyyatının ümumi dinaminizmin və tərəqqisinin təmin edilməsində onun rəqabət mühitinin tənzimlənməsinin əvəzedilməz əhəmiyyəti vardır. Yəni, emal sənayesi sahələrinin rəqabətqabiliyyətliyinin yüksəlməsinin əsasında sahənin yüksək texnoloji sahələri dayanmalıdır. Bunun da təmin olunması səviyyəsi sahədə innovasiya prosesinin və diversifikasiya fəaliyyətinin necə təşkil edilməsindən bilavasitə asılıdır.

Bu məqsədlə fəsildə emal sənayesi müəssisələrinin innovasiya fəaliyyəti və rəqabət münasibətlərinə təsirinin təhlili də həyata keçirilir, mövcud problemlər və onu doğuran səbəblər göstərilir.

Bütün bu və ya digər araşdırmalar belə nəticəyə gəlməyə əsas verir ki, emal sənayesi müəssisələrinin bugünkü vəziyyəti rəqabətədavamlı məhsul istehsal etmək üçün bütövlükdə tam hazır deyil.

**«Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin metod və mexanizmləri»** adlı **üçüncü fəsildə** emal sənayesi müəssisələrinin rəqabət strategiyasının qiymətləndirilməsinin

metodiki əsasları, emal sənayesi müəssisələrinin innovasiyalı rəqabət modeli, emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin diversifikasiya yolu ilə yüksəldilməsi mexanizmləri təklif edilir.

Bu fəsildə göstərilir ki, bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri əmtəə istehsalçıları arasındakı azad rəqabətin mövcud olmasıdır.

Belə ki, rəqabətin əsas məzmunu alıcı uğrunda mübarizə və onların ehtiyatlarının tam təmin edilməsidir. Bazarda daha çox pay və mövqe uğrunda mübarizə və bu sahədə əldə edilən müvəffəqiyyət ilk növbədə əmtəə istehsalçılarının istehsal etdikləri məhsulun rəqabətqabiliyyətliyindən asılıdır.

Bu fəsildə göstərilir ki, respublikamızda rəqabətin inkişafı və qorunması mexanizmi müxtəlif, bir çox hallarda bir-birinə əks olan amillərin təsiri altında formalaşır. Buna görə də Antiinhisar Komitəsi vəzifə və səlahiyyətlərinə uyğun olaraq bu sahədə fəaliyyətinin nomenklaturasını genişləndirmək məcburiyyətindədir. Hər şeydən əvvəl, rəqabət mexanizminin analitik araşdırma bazası genişləndirilməlidir. Yəni, Azərbaycanın emal sənayesi müəssisələrinin rəqabətdavamlı, stabil inkişafı, onun texnoloji cəhətdən inkişaf etmiş xarici ölkələr səviyyəsinə çatdırılması, ölkənin iqtisadi və milli təhlükəsizliyinin təmin olunması bilavasitə mütərəqqi struktur dəyişikliklərinin aparılmasını zəruri edir. Bu isə həm daxili və həm də xarici investisiyaların emal sənayesi sahələrinin prioritet istiqamətlərinə düzgün yönəldilməsindən asılıdır.

Bu məqsədlə emal sənayesi müəssisələrinin rəqabətdavamlı inkişafı üçün onun struktur dəyişikliklərinin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- iqtisadi inkişafın sosial ehtiyaclarının ödənilməsinin vacib şərti kimi iqtisadiyyatın sənaye istehlak sektorunun yaradılması;
- maddi ehtiyatların israfına yol verməyən iqtisadiyyatın təkrar istehsalının əsas səbəbi kimi ölkə iqtisadiyyatının sosial-texnoloji cəhətdən balanslaşdırılmasının təmin olunması.

Dövlətin sosial-iqtisadi siyasəti emal sənayesi sektorunda struktur dəyişikliklərinin aşağıdakı istiqamətlərdə aparılmasına kömək etməlidir:

- idarəetmənin bütün səviyyələrində, müəssisələrin və iqtisadiyyatın dövlət sektorunda islahatın keçirilməsini nəzərdə tutan emal sənayesi müəssisələrinin təşkilati və idarəetmə sektorunun təkmilləşdirilməsi;
- köhnəlmiş texnologiyanın və yararsız əsas fondların əvəz edilməsi əsasında respublikanın emal sənayesi kompleksinin texnoloji strukturunun yaxşılaşdırılması. Bu investisiya prosesinin fəallığı və nisbətlərin əhəmiyyətli dərəcədə dəyişməsini nəzərdə tutur;

- yüksək emal dərəcəsinə malik olan məhsulun xüsusi çəkisinin artırılmasını nəzərdə tutan istehsal strukturunun dəyişdirilməsi;
- iqtisadiyyatın infrastrukturunun inkişafı.

Bu fəsildə eyni zamanda emal sənayesi müəssisələrinin innovasiyalı rəqabət modeli də təklif edilir.

Burada göstərilir ki, emal sənayesi müəssisələrində innovasiya prosesinin səmərəli təşkili onun genişlənməsinə mane olan amillərin necə idarə edilməsindən bilavasitə asılıdır.

Bu məqsədlə, emal sənayesi sahələrində rəqabətqabiliyyətli məhsulların istehsalının genişlənməsinə mane olan iqtisadi, istehsal və digər xarakterli amillərin rəqabətədavamlı məhsulların istehsalına təsirini xarakterizə edən göstəricilərindən istifadə etməklə innovasiya məhsulunun həcmi ( y) ilə iqtisadi ($x_1$ ), istehsal ($x_2$ ) və digər xarakterli göstəricilər ($x_3$) arasındakı korrelyasiya əlaqəsi qurulur:

$$Y=3{,}88\ x_1^{0{,}57}\ x_2^{0{,}04}\ x_3^{0{,}39}.$$

Alınmış model aşağıdakı nəticələri söyləməyə əsas verir:

- 2005-2011-ci illər üzrə sənaye sahələrində rəqabətqabiliyyətli-innovasiyalı məhsulların istehsalının həcmini artmasında daha çox xüsusi çəki iqtisadi xarakterli amillərin payına düşür.
- İqtisadi xarakterli amillərin 1 % artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 0,57 % artmasına gətirib çıxarar.
- İstehsal xarakterli amillərin 1 % artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 0,04 % artmasına gətirib çıxarır.
- Digər xarakterli amillərin 1 % artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 0,39 % artmasına gətirib çıxarar.
- Modeldəki 3,88 əmsalı onu deməyə əsas verir ki, modelə daxil olmayan amillərin 1 % artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 3,88% artmasına gətirib çıxarar.

Təklif edilmiş bu modelə respublikanın emal sənayesi sahələrində rəqabətqabiliyyətli məhsullar istehsalının proqnoz modeli də demək olar.

Bu fəsildə, eyni zamanda emal sənayesi müəssisələrinin istehsal etdiyi məhsulların çeşid strukturu təhlil edilməklə, sahənin rəqabətqabiliyyətliyinin diversifikasiya yolu ilə yüksəldilməsinin iqtisadi mexanizmləri də təklif edilir (şəkil). Belə ki, “Diversifikasiya” - (latınca - diversificatio - dəyişkənlik, müxtəliflik, fəaliyyət) iqtisadi anlamda kapitalın təmərküzləşməsi formalarından biri kimi dəyişkənlik, müxtəliflik təzahüründə obyektlərinin bölünməsi, məhsulun nomenklaturunun genişləndirilməsi, istehsalın bir-biri ilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafını səciyyələndirir.




**Şəkil. Emal sənayesi müəssisələrində rəqabət strategiyasının formalaşmasında diversifikasiya siyasətinin əsas istiqamətləri**

Deməli, bu iqtisadi mexanizmlər özündə sahədə dayanıqlığın möhkəmləndirilməsini, yeni sahələrdə mövqelərin qazanılmasını, korporativ siyasətə uyğun gəlməyən ayrı-ayrı müəssisələrin satışa çıxarılmasını, qeyri-qənaətbəxş işləyən struktur bölmələri üzrə portfel restrukturizasiyasının aparılmasını, vergi planlaşdırılmasını və nəhayət, müəssisələrin özlərinin multisahəvi şirkət kimi formalaşmasının reallığa çevrilməsini kompleks şəkildə birləşdirməlidir.

**Nəticə və təkliflər**

1. Aparılmış tədqiqat işi emal sənayesi müəssisələrində rəqabət mühitinin formalaşması zamanı bazarın inhisarlaşdırılmasının sahənin inkişafina neqativ təsiri haqqında aşağıdakıları söyləməyə əsas verir.

- Son istehlakçıların əsas hüquqları pozulur, belə ki, onlar süni azaldılmış təkliflə artırılmış qiymətlər üzrə malları əldə etməyə məcbur edilmişlər;
- İstehsalın həddən artıq konsentrasiyası sahibkarlığın inkişafını boğur, nəticədə düzgün rəqabət mexanizmi daha az səmərəliklə hərəkət edir;
- İnhisarçılıq bazarın inkişafında struktur nisbətsizliklərə gətirir.

2. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin qiymətləndirilməsində qoyulmuş məqsəddən asılı olaraq «ən yaxın rəqiblərin seçimi», «daha güclü rəqiblərin seçimi», «bazarda əhəmiyyətli ümumi paya malik olan müəssisələrin seçimi», «bazarın coğrafi sərhədləri çərçivəsində bütün fəaliyyətdə olan rəqiblərin seçimi» və «bütün mümkün rəqiblərin seçimi» üsullarından istifadə olunması məqsədəuyğundur.

3. Ölkədə emal sənayesi müəssisələrinin rəqabətədavamlı dayanıqlı və tarazlı inkişafının təmin edilməsinə investisiya qoyuluşlarının həcm və strukturu birbaşa təsir göstərir. Buna görə də əsas kapitala investisiya qoyuluşlarının prioritetləşdirilməsi emal sənayesi müəssisələrinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnvestisiya qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edərkən, ilk növbədə, resursların emal sənayesi müəssisələrinə yönəldilməsi və onun digər sahələrin inkişafı üçün əsas olmasını nəzərə almaq zəruridir. Bununla belə, investisiya qoyuluşlarının istiqamətlərinin müəyyən edilməsinə əlaqədar sahələrin inkişaf səviyyəsi əhəmiyyətli şəkildə təsir göstərir. Yəni, ölkədə iqtisadiyyatın səmərəli inkişafını təmin etmək üçün yüksək səviyyəli enerji kompleksinin, nəqliyyat sisteminin, sənaye və kənd təsərrüfatının satışı sisteminin və s. mövcud olması vacibdir.

4. Ortamüddətli emal sənayesi müəssisələrinin inkişaf etdirilməsində əsas məqsəd ölkədə elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən emal

sənayesi məhsullarının istehsal edilməsinə nail olmaq və ölkənin "neft amili"ndən asılılığını aradan qaldırmaqdır. Bu isə emal sənayesi müəssisələrində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, investisiya-innovasiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi əsasında həyata keçirilə bilər.

5. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətli məhsullar istehsalına mane olan iqtisadi, istehsal və digər amillərin araşdırılması aşağıdakı nəticələri söyləməyə əsas verir:

- emal sənayesi müəssisələrində rəqabətədavamlı istehsalın həcmində iqtisadi xarakterli amillər daha çox əhəmiyyətə malikdir. Belə ki, iqtisadi xarakterli amillərin 1% artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 0,6% artmasına gətirib çıxarır:
- istehsal xarakterli amillərin 1% artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 0,04% artmasına, digər xarakterli amillərin 1% artması, nəticədə rəqabətqabiliyyətli məhsulların istehsalının həcminin 0,36% artmasına gətirib çıxarır.

6. Emal sənayesi müəssisələrinin rəqabətədavamlı məhsullarının istehsalını stimullaşdıran aşağıdakı digər tədbirlərin həyata keçirilməsində məqsədəuyğun hesab edirik:

- yeni və ya təkmilləşdirilmiş məhsul növlərinin yaradılması ilə bağlı aparılan elmi-tədqiqat işlərinin vergidən azad edilməsi;
- innovasiya fəaliyyətinin reallaşdırılması məqsədilə istifadə edilən əsas vəsaitlərin amortizasiya normalarına güzəştli əmsalların tətbiqi;
- vergiqoyma sistemində innovasiya üzrə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə, patentləşdirmə xərclərinə məhdudiyyətin aradan qaldırılması;
- emal sənayesi müəssisələrə innovasiya fəaliyyətini həyata keçirmək üçün güzəştli dövlət və bank kreditlərinin tətbiqi;
- innovasiya menecmenti və marketinqi, layihələrin idarə edilməsi, müasir texnikanın layihələndirilməsi və istismarı üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasına dövlət dəstəyinin reallaşdırılması və s.

7. Azərbaycanın emalı sənayesi müəssisələri rəqabətli bazar münasibətlərinin formalaşdığı qloballaşan dünyada fəaliyyət göstərməyə hələ də tam hazır deyil. Buna görə də dövlətin «sənaye siyasəti» qanunun qəbul edilməsi məqsədəuyğun olardı. Bu siyasətdə emal sənayesi kompleksində struktur dəyişikliklərin aparılması, onun istehsal və elmi-

texniki potensialının inkişafını təmin edən maksimal əlverişli şəraitin yaradılması məsələləri öz əksini tapmalıdır.

8. Emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsini stimullaşdırmaq üçün elmtutumlu məhsulların istehsalının genişlənməsini təmin etmək, elmi-tədqiqat institutlarının fəaliyyətini genişləndirmək, bütövlükdə isə onun innovasiya yönümlü inkişafına nail olmaq lazımdır.

9. Emal sənayesi sahələrində rəqabətədavamlı məhsullar istehsalını stimullaşdırmaq üçün istehsala yönəldilən investisiyaların həcmini artırmaq, gömrük siyasəti vasitəsilə optimal rəqabət rejimini yaratmaq, ixrac yönümlü istehsalı genişləndirmək (bunun üçün xüsusi iqtisadi zonalar yaratmaq), güzəştli kreditlərin verilməsinin ixrac-idxal əməliyyatları üçün inzibati qaydaların asanlaşdırılmasını həyata keçirmək lazımdır.

10. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyini artırmaq üçün müvafiq dövlət idarəçilik strukturunun yaradılması, onun ixrac siyasətini iqtisadiyyatın struktur islahatları ilə əlaqələndirilməsi, kiçik biznesin ixrac aktivliyinin stimullaşdırılması və s. məsələlər həyata keçirilməlidir.

11. Emal sənayesi sahələrində diversifikasiya prosesi həyata keçirilməlidir. Bu isə ölkə iqtisadiyyatının xarici-iqtisadi inkişaf strategiyasına uyğun aparılmalı, yüksək texnoloji emal sənayesinin daha yüksək sürətli inkişafı hesabına ölkənin neft sektorundan asılılığını aradan qaldırmalı, innovasiya sisteminin yaradılması yolu ilə emal sənayesi sahələrini rəqabətədavamlı, dayanıqlı iqtisadi artımın əsas resursuna çevirmək lazımdır.

12. Emal sənayesi sahələrinin rəqabətqabiliyyətliyini yüksəltmək, dövlətin sənaye siyasətini aparmaq üçün bu sahədə pozitiv struktur dəyişikliklər, mülkiyyət hüququnun qorunması, informasiya aşkarlığı və təbii inhisar məhsullarının qiymətlərinin tənzimlənmə metod və sistemlərinin yaxşılaşdırılması üçün təşkilati və hüquqi bazanın yaradılması, vergi sistemində islahatların aparılması, xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən himayə edilməsi, mükəmməl və səmərəli fəaliyyət göstərən inkişaf institutlarının yaradılması, daxili bazarda yerli emal sənaye məhsuluna tələbin gücləndirilməsi və idarəetmə sisteminin təkmilləşdirilməsi həyata keçirilməlidir.

13. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyini yüksəltmək və milli iqtisadiyyatın sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması üçün iqtisadiyyatın innovasiya tipli inkişaf yoluna keçmək, texnologiyaların kommersiyalaşması hesabına elmi-texniki nailiyyətlərin nəticələrinin əmtəəyə çevrilməsi və sənaye miqyasında onlardan səmərəli realizasiyasına nail olmaq lazımdır. Eyni zamanda kimya, neft-kimya,

maşınqayırma, metallurgiya, və digər emal sənaye komplekslərin mövcud potensialından istifadənin yaxşılaşdırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, innovasiyalı texnologiyalar tətbiq olunmaqla, yerli xammal ehtiyatları əsasında daxili və dünya bazarlarında rəqabətqabiliyyətli yeni məhsulların, o cümlədən xarici kapitalın iştirakı ilə müştərək müəssisələrin yaradılması strateji istiqamətlər hesab olunmalıdır.

14. Emal sənayesi sahələri qloballaşan müasir dövrdə Azərbaycan iqtisadiyyatına aktiv təsir edir və ölkələrarası rəqabətə təsir edərək iqtisadi artım üçün yeni imkanlar açır. Nəticədə milli iqtisadiyyatın dünya investisiya proseslərindən, dünya iqtisadi təşkilatlardan, dünya maliyyə institutlarından və dünya konyunkturasından asılılığı artır və respublikamız qloballaşan dünyanın ayrılmaz hissəsinə çevrilir.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunmuş nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır.**


1. Süleymanov Q.S., Baxışov A.S. İnnovasiyalı iqtisadiyyatın formalaşması bazar prinsiplərinin əsasıdır. Məqalə, SDU, “Sosial və humanitar elmləri” bölməsi,№4,2010, səh 113-116
2. Baxışov A.S. Sənaye məhsulu istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsinin strateji istiqaməti/ Məqalə, ADİU, “İqtisad elmləri” “Nəzəriyyə və praktika”(Rüblük nəzəri və elmi-praktiki jurnal) №3,2010, səh 192-197
3. Baxışov A.S. Sənaye sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində texnoloji innovasiyaların rolu/ Məqalə, ADİU, “İqtisad elmləri” “Nəzəriyyə və praktika”(Rüblük nəzəri və elmi-praktiki jurnal) №3, 2010,səh. 143-151
4. Baxışov A.S. Bazar münasibətlərində sənaye müəssisələrinin rəqabət qabiliyyətinin tənzimlənməsi metodologiyası. Məqalə, AMEA-nın xəbərləri, iqtisadiyyat elmləri seriyası, №4, 2010, səh. 125-133
5. Baxışov A.S. Sənaye müəssisələrində rəqabət mühitinə təsir edən amillər və onların qiymətləndirilməsi yolları/ Məqalə, AMEA-nın xəbərləri, İqtisadiyyat elmləri seriyası, №2 2011, səh.20-24
6. Baxışov A.S. Bazar iqtisadiyyatında rəqabət münasibətlərinin tənzimlənməsinin nəzəri metodoloji əsasları. Məqalə, AMEA-nın xəbərləri, İqtisadiyyat elmləri seriyası, №1 2011, səh.79-85
7. Бахышов А.С. Оценка роли инновации в формировании конкурентных отношений промысленных отрослей. Статьи, Москва, Издательства «Спутник» Проблемь экономики №3, 2011.стр.9-17
8. Süleymanov Q.S., Baxışov A.S. İnnovasiya yönümlü iqtisadi inkişafın rəqabət strategiyasının formalaşması mexanizmləri. Məqalə, “Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya

inkişafi”/Beynəlxalq EPK-nın materialları, Bakı, Elm 2011, səh.79-83
9. Baxışov A.S. Milli iqtisadiyyatın innovasiyalı inkişafında rəqabətin bazar strategiyasının əsas istiqamətləri. Məqalə, “Korporativ idarəetmə və iqtisadiyyatın innivasiya inkişafi” ”/Beynəlxalq EPK-nın materialları, Bakı 2011, səh. 84-87
10. Süleymanov Q.S., Baxışov A.S. İnnovasiyalı istehsalın diversifikasiyasının rəqabət qabiliyyətliyinin yüksəldilməsində rolu. Məqalə, Azərbaycanın müstəqilliyinin 20 illiyinə həsr olunmuş”Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyaların rolu”//Beynəlxalq EPK-nın materialları, Bakı 2011, səh.118-121
11. Süleymanov Q.S., Baxışov A.S. İnnovasiya fəaliyyətinin idarə edilməsində əmtəə-çeşid siyasətinin rolu. Məqalə, Azərbaycanın müstəqilliyinin 20 illiyinə həsr olunmuş” Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyaların rolu”//Beynəlxalq EPK-nın materialları, Bakı 2011, səh 266-269
12. Süleymanov Q.S., Baxışov A.S. Sənaye sahələrinin rəqabət strategi-yasının formalaş-masında diversifikasiyanin qiymətləndirilməsi. Məqalə, AMEA-nın xəbərləri, İqtisadiyyat elmləri seriyası, №3, 2011, səh.76-81
13. Süleymanov Q.S., Baxışov A.S. Tikinti sənaye məhsulları istehsal edən müəssisələrin mövcud vəziyyəti və onun rəqabət qabiliyyətliyinin yüksəlməsində marketinq strategiyasının yaradılması mexanizmləri. Məqalə,İqtisad elmləri: nəzəriyyə və praktika, seriyası №1, 2011, səh. 125-144
14. Süleymanov Q.S., Sadıqlı H.Z., Baxışov A.S. və b. İnnovasiya yönümlü dayanıqlı iqtisadi inkişafın formalaşdırılmasında investisiya layihələrinin rolunun qiymətləndirilməsi / “Müasir dünyada inteqrasiya və müqavimət prosesləri” mövzusunda BEK materialları. B., Azərbaycan Universiteti, 2012, səh.13-15
15. Сулейманов Г.С., Гамидова Р.Э. Алиев В.Н., Бахышов А.С. и др. Инновации – основа национальной экономики в условиях глобализации / “Müasir dünyada inteqrasiya və müqavimət prosesləri” mövzusunda BEK materialları. B., Azərbaycan Universiteti, 2012, səh.158-162
16. Бахышов А.С., Инновационные формирования конкурентных отношений промышленных отраслей// Проблемы экономики и управления нефтегазовым комплексом. Научно экономический журнал. М.: «№1», 2013, с. 32-38.

**Бахышов Азер Сурадж оглы**

**Стратегические направления обеспечения конкурентоспособности предприятий перерабатывающей промышленности**

## РЕЗЮМЕ


Диссертация состоит из введения, трех глав, заключения и рекомендаций, списка использованной литературы.

Во **введении** обосновывается актуальность темы, определяется степень изученности проблемы, раскрываются цели и задачи исследования, указываются ее теоретико-методологические основы, научная новизна и практическое значение, объект, предмет и научная база исследований.

В первой главе **«Теоретико-методологические основы регулирования конкуренции в рыночной экономике»** рассматриваются теоретические подходы к конкуренции, механизмы регулирования конкурентоспособности промышленных предприятий, факторы, влияющие на конкуренцию и способы их оценки.

Во второй главе **«Тенденции развития предприятий перерабатывающей промышленности и оценка их конкурентоспособности»** рассматривается существующее состояние промышленного производства, анализируется уровень конкурентоспособности, современное состояние предприятий, производящих строительные материалы, дается оценка роли инноваций в формировании конкурентных отношений.

В третьей главе **«Методы и технологии повышения конкурентоспособности предприятий перерабатывающей промышленности»** предлагаются методические основы оценки стратегии конкурентоспособности перерабатывающих предприятий в промышленности, а также факторы, влияющие на формирование обстановки здоровой конкуренции на рынке сбыта продуктов и основные механизмы повышения конкурентоспособности предприятий перерабатывающей промышленности путем диверсификации.

В заключении представлена совокупность полученных рекомендаций и предложений.

**Baxıshev Azer Suraj**

**Maintenance of strategic directions the competitiveness of the processing industrial enterprises**

**SUMMARY**

The dissertation consists of the introduction, three heads, the conclusion and offers, the list of the used literature.

In **introduction** the theme urgency is proved, defined problem levels of scrutiny, reveal the purposes and research problems, its theoretic-methodological bases, scientific novelty and practical value are specified, the object, a subject and scientific base of researches are reflected. theoretic-methodological bases, scientific innovations and practical value, the object, a subject and scientific base of the research speaks.

In chapter one, **"Theoretic-methodological bases of regulation of a competition in market economy"** are considered theoretical approaches to competition, regulation methodology competitive processors, factors affecting competition and how to evaluate them.

In the second chapter **"Tendencies in the development of the processing industries and to assess their competitiveness"** discusses the current state of industrial production, analysis of the level of its competitiveness, the current status of enterprises producing construction materials, an assessment of the role of innovation in the formation of competitive relations.

In the third chapter **"Methods and technologies of increase of competitiveness of the processing industrial enterprises"** are offered methodical bases of an estimation of strategy the competitiveness of reprocesses in industry, and also factors influencing on forming situation of a healthy competition at the market of sale products and basic mechanisms of increase competitiveness of enterprises processing industry by diversification.

In the conclusion presented a set of recommendations and suggestions.

**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ НЕФТЯНАЯ АКАДЕМИЯ**

---

*На правах рукописи*

**Бахышов Азер Сирадж оглы**

# СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИЯТИЙ ПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ

**Специальность: 5309.01 – Организация промышленности и государственная политика**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по экономике**

**Баку-2013**